# Torpaqların elektron kadastr uçotu informasiya sistemi yaradılır





*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkədə torpaqların elektron kadastrı uçotu sisteminin yaradılması ilə bağlı verilmiş tapşırıqlarına və Nazirlər Kabinetinin 28 aprel 2016-cı il tarixli Sərəncamı ilə "Dövlət və bələdiyyə mülkiyyətində, habelə xüsusi mülkiyyətdə olan bütün kateqoriyalı torpaqların elektron uçotunun aparılması və xəritələşdirilməsi yolu ilə torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılmasının və rəqəmsal kadastr xəritəsinin tərtib edilməsinin 2020-ci ilədək mərhələlərlə təmin olunmasına dair tədbirlər Planı"na uyğun olaraq Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən Qəbələ rayonunda " Torpaqların Elektron Kadastr Uçotu İnformasiya Sistemi" nin yaradılması başlığı altında maarifləndirmə işləri ilə bağlı toplantı təşkil olunmuşdur. Rayon icra hakimiyyətinin, ərazi icra nümayəndəliklərinin, yerli bələdiyyələrin, idarə, müəssisə və təşkilat rəhbərlərinin iştirak etdiyi toplantını açıq elan edən Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev tədbirin əhəmiyyəti barədə məlumat vermişdir.*

Qeyd olunmuşdur ki, "Torpaqların Elektron Kadastr Uçotu İnformasiya Sistemi"nin işə düşməsi nəticəsində torpaq üzərində bütün münasibətlərin tənzimlənməsi, mövcud olan bir sıra problemlərin həlli istiqamətində səmərəli qərarların verilməsi təmin olunacaqdır. Daha sonra Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Kadastrı və Ünvan Reyestri Xidmətinin rəisi Ramiz Quliyev çıxış edərək diqqətə çatdırmışdır ki, toplantının keçirilməsində başlıca məqsəd Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan bütün kateqoriyalı torpaqların həm kəmiyyət həm də keyfiyyət göstəricilərinə görə avtomatlaşdırılmış torpaq kadastrı informasiya sisteminin və məlumat bankının, habelə Ünvan Reyestri İnformasiya Sisteminin yaradılması, yerquruluşu, xüsusi təyinatlı (sahəvi) geodeziya işlərinin aparılması, torpaq ehtiyatlarının elmi əsaslarla idarə edilməsi üçün ərazilərin məkan şəraitlərinin tədqiqi sahəsində görülən işlər barədə ictimaiyyəti məlumatlandırmaqdır.

Diqqətə çatdırılıb ki, torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması nəticəsində ölkədə torpaq ehtiyatlarının idarə olunması, torpaq balansının tərtib edilməsi, torpaqlardan daha səmərəli istifadə olunması üçün müvafiq təkliflərin hazırlanması, torpaq mülkiyyətçilərinə və istifadəçilərinə subsudiyaların verilməsi məsələləri diqqət mərkəzində saxlanılacaqdır. Tədbirdə toplantı iştirakçılarına rəqəmsal kadastr xəritələr vasitəsilə əyani şəkildə görülən və görüləcək işlər barədə məlumat verilib. Tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb. Tədbiri rayon icra hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev yekunlaşdırmışdır.

✍ Rais RƏŞİDOV.
*«Qəbələ».*
İlkin Vəlizadə.

### *QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2017-ci İLİN MART AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ GÖRÜŞ-QƏBULLARIN QRAFİKİ*

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Böyük Pirəli kəndi | 07.03.2017 | Kənd məktəbi, saat $15^{00}$ |
| İmamlı kəndi | 14.03.2017 | Kənd məktəbi, saat $15^{00}$ |
| Bum qəsəbəsi | 21.03.2017 | Qəsəbə məktəbi, saat $15^{00}$ |
| Abrıx kəndi | 28.03.2017 | Kənd məktəbi, saat $15^{00}$ |

**Qəbula dəvət olunurlar:** təhsil, səhiyyə müəssisələrinin, hüquq-mühafizə orqanlarının, əhalinin sosial müdafiəsi, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol istismar, baytarlıq, qaz istismar, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.

# Qəbələdə sosial-iqtisadi inkişafın yeni üfüqləri

## Rayon icra hakimiyyətində keçirilən geniş müşavirədə çıxışlar:

**(Əvvəli 3-cü səhifədə).**

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı üzümçülüyün inkişafına yeni stimul verdi.

Çalışdığım ASPİ-AQRO MMC 2007-ci ildən başlayaraq əvvəlcə 44 hektar sahədə üzüm bağı əkdi. Hazırda müəssisə 220 hektardan artıq üzüm bağına sahibdir. Burada 50 nəfər daimi işlə təmin olunmuşdur. Mövsümü işlər zamanı isə 200 nəfərdən artıq işçi cəlb olunur.

Bağlarımızda 22 növ texniki, 14 növ süfrə üzümü yetişdirilir. Cəmiyyətin özünün şərab zavodu var ki, burada istehsal olunan şərablar ölkəmizdə və xarici bazarlarda şöhrət qazanmışdır. Ötən il xarici bazarlara şərabdan əlavə 30 tondan çox süfrə üzümü göndərmişik. Bu il bu rəqəmin daha da artırılması nəzərdə tutulub.

*Aynur QƏDİROVA,*
*şəhər 3 nömrəli tam orta məktəbin müəllimi.*



**Hörmətli müşavirə iştirakçıları!**

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kurs özündə millətin, dövlətin mənafeyinə cavab verən ən ali prinsipləri və normaları ehtiva edir. Ötən ilin nəticələri və yekunları bir daha sübut edir ki, möhtərəm Prezidentimizin rəhbərliyi ilə reallaşdırılan ümummilli inkişaf strategiyası hər bir sahənin paralel inkişafını ən yüksək səviyyədə təmin edib və bu tendensiya ardıcıl davam etməkdədir. Bu gün tam cəsarətlə demək olar ki, ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində tqtisadi islahatların və inkişafın Azərbaycan modeli yaranıb. Bu model əsasında uğurla həyata keçirilən və yeni çalarlarla zənginləşdirilən sosial-iqtisadi siyasətin nəticələri Azərbaycanın həm də beynəlxalq imicinin və dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə gətirib çıxarıb.

Azərbaycanın gözəl guşələrindən olan doğma Qəbələmizdə gedən sürətli inkişaf buna parlaq nümunədir. Artıq Qəbələ paytaxtdan sonra ikinci turizm mərkəzinə çevrilib. Yeni binalar, turizm obyektləri, əyləncə mərkəzləri, parklar şəhərimizi gözəlləşdirib. Rayonumuzda fəaliyyət göstərən böyük istehsal obyektlərinin olması həm iqtisadi baxımdan, həm də əhalinin işlə təmin olunması baxımından qəbələlilər tərəfindən rəğbətlə qarşılanır.

Vətəndaşların sosial rifahının yüksəldilməsi üçün ölkə başçısının apardığı siyasəti biz həmişə dəstəkləmişik. Bu gün qeyri-neft sektorunun inkişafı, ərzaq təhlükəsizliyi ilə bağlı görülən işlər, işğaldan azad olunmuş bölgələrin inkişafı üçün nəzərdə tutulan layihələr diqqət mərkəzindədir. Bütün bunlar biz sadə vətəndaşları çox sevindirir. Çünki atılan hər addm xalqın mənafeyini qoruyan bir siyasətin nəticəsidir. Biz əminik ki, hələ Azərbaycanımızın parlaq gələcəyi qarşıdadır. Bunun üçün yorulmadan çalışan dövlət başçımıza kollektivimiz adından təşəkkürümü bildirirəm. Cənab Prezidentimizə can sağlığı, yorulmaz fəaliyyətində uğurlar arzu edirəm.

*Aydın MİRZƏLİYEV,*
*ailə fermer təsərrüfatının rəhbəri.*



**Hörmətli başçı!**
**Hörmətli qonaqlar və iclas iştirakçıları!**

Rayonumuzun iqtisadiyyatında aqrar sektor xüsusi əhəmiyyət kəsb edir. Ölkə başçısının kənd təsərrüfatına göstərdiyi qayğının nəticəsidir ki, son illər kənd yerlərində yaşayan əhalinin torpağa bağlılığı daha da artmış, iqtisadiyyatın bu sahəsi böyük sıçrayışla inkişaf etmişdir.

Mən yaşadığım Böyük Əmili kəndində ailə fermer təsərrüfatı yaratmışam. Təsərrüfatıma məxsus sahənin 3 hektarında fındıq, 1 hektarında tut tingi, 12 hektarında isə taxıl əkmişəm. Həmçinin təsərrüfatımda 12 baş iribuynuzlu, 40 baş xırdabuynuzlu mal-qaram var.

Bunlarla yanaşı əvvəllər rayonumuzda geniş yayılmış, lakin sonralar bu sahəyə maraq azaldığından sıradan çıxmış baramaçılıqla da keçən ildən məşğul olmağa başlamışam.

Ötən il 50 qram ipək qurdu bəsləmiş, 155 kiloqram yüksək keyfiyyətli barama istehsal etmişəm.

Həmin məhsulu Şəki ipəkçilik müəssisəsinə sataraq 1240 manat pul qazanmışam. Ailə üzvlərimlə qərara almışıq ki, bu il 100 qram ipəkqurdu bəsləyək. Bu məqsədlə Çin Xalq Respublikasından gətirilmiş 1000 ədəd tut tingi əkmişəm.

Çalışacagam ki, ailə fermer təsərrüfatında gələcəkdə bu sahəni daha da inkişaf etdirim.

Dövlət tərəfindən biz fermerlərə göstərilən diqqət və qayğıya görə Prezidentimiz cənab İlham Əliyevə öz dərin minnətdarlığımı bildirirəm.

*«Qəbələ».*
İlkin Vəlizadə.